# Hər kəs məsuliyyətli olmalı, qanunlara riayət etməlidir



Ötən ilin sonlarından başlayaraq koronavirus infeksiyası dünyanı təhdid etməkdə davam edir. Bütün ölkələrdə ciddi təhdid mənbəyinə çevrilən pandemiya hər gün yüz minlərlə insanın həyatını təhlükə altına alır. Təsadüfi deyil ki, son statistikaya görə, dünyada bu virusa yoluxanların sayı 23 milyonu, ölənlərin sayı isə 800 min nəfəri ötüb. Ən inkişaf etmiş ölkələr belə bu təhlükənin qarşısında aciz durumda qalıb. Virus əleyhinə vaksinin hazırlandığı barədə məlumatlar dolaşsa da, hələ ki ortada real bir nəticə yoxdur.

## Birinci məsələ insanların həyatı, onların sağlamlığıdır

Ötən dövrdə ayrı-ayrı ölkələrin xəstəliklə mübarizə tədbirləri təsdiq etdi ki, yoluxuculuq qabiliyyəti yüksək olan virusdan qorunmağın əsas və yeganə yolu sosial izolyasiya, insanlar arasında ünsiyyətin məhdudlaşdırılması, karantin rejiminin tətbiqidir. Reallıq da göstərir ki, bu şərtlər çərçivəsində müvafiq addımlar atan, qabaqlayıcı tədbirlər görən ölkələrdə virusun tüğyan etməsinin qarşısı alınıb və itkilər digər dövlətlərlə müqayisədə xeyli az olub.

Bunun ən real nümunəsindən biri də Azərbaycandır. Təsadüfi deyil ki, koronavirusa qarşı ən effektiv mübarizə aparan ölkələrdən söz açıdqda Azərbaycanın adı birincilər cərgəsində gəlir. Bu da təsadüfi deyil. Çünki fevralın sonlarında respublikamızda virusa ilk yoluxma halı qeydə alınandan operativ şəkildə qabaqlayıcı tədbirlərin həyata keçirilməsinə başlanıldı. Problemin ciddiliyi nəzərə alınaraq Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarları ilə dövlət sərhədləri bağlanıldı, bütün təhsil müəssisələrində tədris dayandırıldı, iri ticarət mərkəzlərinin işinə fasilə verildi, virusun geniş yayılmaması üçün çevik və sistemli preventiv tədbirlər həyata keçirildi. Martın 14-dən sosial izolyasiya qaydaları tətbiq olundu, aprelin 5-dən isə xüsusi karantin rejimi elan edildi.

Ən əsası odur ki, pandemiya ilə mübarizə məsələləri ilk gündən Prezident İlham Əliyevin diqqət mərkəzindədir. Bu dövrdə ölkə rəhbərinin fəaliyyəti, keçirdiyi görüşlər, verdiyi qərarlar təsdiq edir ki, koronavirusla mübarizə dövlət siyasətinin prioritetlərindən biridir. Bu istiqamətdə ən vacib məsələ, ilk növbədə, vətəndaşların sağlamlığıdır. Ölkəmizdə koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı avqustun 6-da videoformatda keçirilən müşavirədə Prezident İlham Əliyev bu barədə bir daha bəyan edərək dedi: *"Bundan sonra da insanların sağlamlığının qorunması üçün bütün lazımi tədbirlər görüləcək. Mən bir daha qeyd etmək istəyirəm, - bunu dəfələrlə demişəm və Azərbaycan xalqı mövqeyimizi bilir, - bizim üçün birinci məsələ insanların həyatı, onların sağlamlığıdır"*.

Ümumiyyətlə, Prezident İlham Əliyevin koronavirusla mübarizə təşəbbüsləri çoxşaxəlidir. Cənab Prezidentin fərman və sərəncamları ilə Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradılması, modul tipli xəstəxanaların yaradılması, yeni laboratoriyaların alınması, koronavirus xəstələrinə xidmət göstərən həkimlərin maaşlarının artırılması vətəndaşların sağlamlığı naminə həyata keçirilən hərtərəfli dövlət siyasətindən xəbər verir. Qoruyucu tibbi maska istehsalı müəssisələrinin fəaliyyətə başlaması da bu siyasətin uğurlu nümunələrindən biridir.

Eyni zamanda Azərbaycan ictimaiyyəti bu günlərdə əsl vətəndaşlıq təəssübündən çıxış edən Birinci vitse-prezident Mehriban Əliyevanın problemə olduqca həssas münasibətini müşahidə etməkdədir. Bunu Mehriban Əliyevanın son dövrlərdə koronavirus infeksiyası ilə bağlı xahişlə müraciətləri, eləcə də rəsmi "Instagram" səhifəsində etdiyi paylaşımlar təsdiq edir. Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu isə karantin dövründə xeyriyyəçilik tədbirlərini daha da genişləndirib.

## Virusla mübarizə həm də vətəndaşların vəzifəsidir

Son dövrlərdə virusa yoluxma sayında bəzən azalmalar, bəzən də nisbi artımlar baş versə də, respublikamız ciddi fəsadların müşahidə edildiyi ölkələr sırasında yer almır. İstər yoluxma, istərsə də vəfat edənlərin sayına görə, Azərbaycanda qeydə alınan hallar digər ölkələrlə müqayisədə təhlükəli səviyyədə deyil. Çünki əvvəldə qeyd etdiyim kimi, Azərbaycan hökuməti pandemiya ilə mübarizə üçün kifayət qədər geniş tədbirlər planı həyata keçirib. Həkimlərimiz və polislərimiz insanların həyatını xilas etmək, karantin rejiminə əməl olunmasını təmin etmək üçün maksimum səy göstərməkdədirlər.

Lakin koronavirusla mübarizədə müsbət nəticənin əldə olunması təkcə hökumətin fəaliyyətindən və Operativ Qərargahın qərarlarından asılı deyil. Dövlət qurumları bu istiqamətdə mümkün olan bütün tədbirləri həyata keçirsələr də, qorxunc virusla mübarizə həm də vəzifəsindən, statusundan asılı olmayaraq, hər bir vətəndaşın bilavasitə borcudur. Bu barədə ekspertlər, tibb işçiləri kifayət qədər fikirlərini bildiriblər. Cənab Prezident də çıxışlarında daim karantin rejiminin tələblərinə əməl olunmasının vacibliyini önə çəkib. Çünki xəstəliyin yayılmasının qarşısının alınmasının birinci yolu karantin və izolyasiya rejiminin tələblərinə riayət etməkdir. Hər bir vətəndaş özünü qorusa, yoluxma da olmaz və beləliklə, koronavirus təhlükəsi bir o qədər tez aradan qaldırılar.

Lakin təəssüflə qeyd etməliyik ki, hələ də karantin rejiminin qaydalarının pozulması ilə bağlı xoşagəlməz hadisələr baş verməkdədir. Yenə də xəstəliyin ciddiliyinə inanmayan, qəbul olunmuş qərarlara etinasız yanaşanlara rast gəlinir. Qoruyucu maskalardan istifadə edilməməsinin, müxtəlif tədbirlərin təşkilinə dair hadisələrin şahidi oluruq. Bu yaxınlarda istirahət mərkəzlərinin birində karantin rejimi tələblərinin pozulmasına münasibət bildirən Prezident İlham Əliyev deyib: "İlk gündən bu günə qədər burada dövlət tərəfindən bütün lazımi addımlar atılıbdır. Xəstəliyin yayılmasının başlıca səbəbi bəzi insanların məsuliyyətsizliyidir. Onlar sadə qaydaları gözləmirlər, bunlara əməl etmirlər. Ona görə biz məcbur olub cərimələri artırdıq. Bəzi hallarda karantin rejimini pozanlara qarşı sərt addımlar atmağa məcbur oluruq. Ancaq onlar da öz məsuliyyətini dərk etməlidirlər. Bütün qaydalar insanların, o cümlədən karantin rejimini pozanların sağlamlığının qorunmasına hesablanıb. Amma biz görürük ki, insanlar bu rejimi nümayişkaranə pozurlar".

## Bir neçə saatlıq mərasim böyük faciələrə yol aça bilər

Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına uyğun olaraq, son vaxtlar sərt karantin rejimi bir qədər yumşaldılsa da, təhlükəli olması nəzərə alınaraq kütləvi tədbirlərin, o cümlədən toy və yas mərasimlərinin keçirilməsi ilə bağlı qadağa qüvvədədir. Bu qadağanın aradan qaldırılmaması tamamilə doğru və məntiqlidir. Çünki reallıq və aparılan təhlillər göstərir ki, virusun sürətli yayılmasına yol açan səbəblərdən biri insanların kütləvi şəkildə iştirak etdiyi müxtəlif tədbirlər, o cümlədən toy və yas mərasimləridir. Çünki belə tədbirlərdə sosial məsafə tələblərinə riayət etmək mümkün deyil.

Təəssüf ki, karantin rejimi günlərində toy və yas mərasimlərinin, digər bu səpkili tədbirlərin keçirilməsinin şahidi olmuşuq. Bütün bunlar göstərir ki, bəzi vətəndaşlar özlərinin sosial məsuliyyətini anlamır və karantin rejimi tələblərini şüurlu şəkildə pozaraq özlərini və yaxınlarını virusa yoluxmağa sürükləyirlər. Belə xoşagəlməz halların qarşısının hüquq-mühafizə orqanları tərəfindən alınması və qanun pozuntularına yol verənlərin hüquqi məsuliyyətə cəlb edilmələri haqlı olaraq cəmiyyətimiz tərəfindən razılıqla qarşılanır.

Bu gün vəzifəsindən, statusundan asılı olmayaraq övladına toy etmək istəyən, əzizlərinin xoşbəxtliyini arzulayan hər bir kəs başa düşməlidir ki, onların bir neçə saatlıq toy məclisi böyük faciələrə yol aça bilər. Çünki virus təhlükəsi sovuşmayıb və indiki vəziyyətdə heç kim bu xəstəliyə yoluxmaqdan sığortalanmayıb. Toy isə kütləvi tədbir olduğundan onlarca, yüzlərlə insanın virusa yoluxması üçün potensial təhlükə mənbəyidir.

Karantin rejiminin uzadılmasının da əsas səbəblərindən biri məhz tətbiq olunan qadağalara əməl edilməməsi səbəbindən virusa yoluxmanın artmasıdır. Əgər tələblərə riayət olunsaydı, sərt karantin rejiminin uzadılmasına da gərək qalmazdı. Bu baxımdan hər bir vətəndaş bunları nəzərə almalı, məsuliyyətli olmalı, özünü və yaxınlarını qorumalı, Operativ Qərargahın tələb və tövsiyələrinə riayət etməlidir. Vətəndaşın məsuliyyətli olması isə həm də onun cəmiyyətə və qanunlara hörmət etməsi, ölkəmizdə həyata keçirilən siyasətlə həmrəylik nümayiş etdirməsi deməkdir.

Xoşagəlməz halların baş verməsinə baxmayaraq, bütövlükdə, Azərbaycan cəmiyyəti koronavirusun yayılmasının qarşısını almaq üçün həyata keçirilən məhdudiyyət tədbirlərini anlayışla qarşılayır. Təbii ki, bütün qadağalar müvəqqətidir, koronavirus təhlükəsi sovuşduqdan sonra məhdudiyyətlər də aradan qaldırılacaq və ondan sonra hər kəs istədiyi kimi toy məclisi qura biləcəkdir.


***Eldar QULİYEV,***
***Milli Məclisin deputatı,***
***iqtisad elmləri doktoru, professor***



Azərbaycan.- 2020.-25 avqust.- S.5.